# Dünya azərbaycanlıları Müstəqillik Gününü qeyd edirlər






"Dünyanın hər yerində yaşayan azərbaycanlılar tərəfindən 28 May - Müstəqillik Günü qeyd olunur. Gürcüstanda, o cümlədən Batumidə də bu bayram geniş və təntənəli şəkildə qeyd edilir, silsilə tədbirlər keçirilir. Bu, bizim milli dövlətimizə olan sevgimizin nümunəsidir".

Bu fikirləri müsahibəsində Batumidəki Azərbaycan diasporunun fəal üzvü Mahir Balakişiyev söyləyib. O vurğulayıb ki, Müstəqillik Günü Azərbaycan xalqının azadlıq uğrunda apardığı mübarizənin simvoludur: "Düşünürəm ki, hər bir azərbaycanlı bunun əhəmiyyətini dərk etməli və qəlbən sevinərək bayramı keçirməlidir".

Mahir Balakişiyev bildirib ki, Gürcüstanda, o cümlədən Batumidə yaşayan və orada fəaliyyət göstərən azərbaycanlılar Azərbaycanı çox sevirlər, dövlətimizin və Prezident İlham Əliyevin ətrafında sıx birləşiblər. "Bu birliyi Vətən müharibəsində də gördük. Batumidə yaşayan və orada fəaliyyət göstərən azərbaycanlılar Azərbaycana kömək etmək üçün müxtəlif aksiyalar, yardım proqramları həyata keçirdilər. Onlar milli bayramlarımızda da birlik nümayiş etdirir, milli mənliyimizin, milli kimliyimizin qorunması və gələcək nəsillərə çatdırılması üçün əllərindən gələni edirlər", - deyə Mahir Balakişiyev vurğulayıb.

❖ ❖ ❖

Mərakeş Krallığındakı Azərbaycan səfirliyi tərəfindən ölkəmizin müstəqilliyinin 107-ci ildönümünə həsr edilmiş təntənəli rəsmi qəbul təşkil olunub. Rabat şəhərində keçirilən tədbir Azərbaycan ilə Mərakeş arasında dostluq və əməkdaşlıq münasibətlərinin yüksək səviyyədə olduğunu bir daha nümayiş etdirib.

Səfirlikdən verilən məlumata görə, tədbirdə 300-dən artıq şəxs - Mərakeş hökumətinin nümayəndələri, diplomatik korpusun üzvləri, parlament və media təmsilçiləri, ictimaiyyət nümayəndələri və Azərbaycan diasporunun üzvləri iştirak ediblər.

Mərakeş hökuməti tədbirdə ölkənin gənclər, mədəniyyət və kommunikasiya naziri Məhəmməd Mehdi Bensaid tərəfindən təmsil olunub. Qəbulda həmçinin həmrəylik, sosial inteqrasiya və ailə naziri xanım Naima Ben Yahya, Müqavimətçilər və azadlıq ordusunun sabiq üzvləri üzrə Ali Komissar Mustafa əl-Ktiri, Audiovizual Rabitə üzrə Ali Şuranın sədri xanım Latifa Axarbaş və Kral Arxivlərinin direktoru xanım Bəhicə Simu iştirak ediblər.

Tədbir çərçivəsində xüsusi diqqətəlayiq məqamlardan biri "Mərakeşli uşaqların gözü ilə Azərbaycan" adlı rəsm sərgisi olub. Sərgidə mərakeşli uşaqlar tərəfindən çəkilmiş Azərbaycanın təbiətinə, mədəniyyətinə, milli atributlarına və xalqına həsr olunmuş rəngarəng və duyğusal rəsmlər nümayiş etdirilib. Uşaqların təsəvvürlərindəki Azərbaycan motivləri tədbir iştirakçıları tərəfindən böyük maraqla qarşılanıb.

Rəsmi qəbul zamanı iştirakçılara Azərbaycan milli mətbəxindən nümunələr təqdim olunub, xalq musiqimizin səsləndiyi bədii proqram nümayiş etdirilib. Tədbir qonaqlar tərəfindən yüksək dəyərləndirilib və iki ölkə arasında mədəni diplomatiyanın inkişafı baxımından uğurlu təşəbbüs kimi qeyd olunub.

***AZƏRTAC***

Azərbaycan.- 2025.- 28 may (№110).- S.18.